**525-ci qəzet**. - 2024. - 21 may. - № 88. - S. 13.

# Naxçıvanda pedaqoji kadr hazırlığı: son 100 ilin faktları və rəqəmləri

**Rövşən Vəliyev,**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

XX əsrdə və XXI əsrin əvvəllərində Azərbaycan xalqının maariflənməsində təhsil prosesinin, bu sahənin görkəmli nümayəndələrinin müstəsna xidmətləri var. Naxçıvanda isə maarifin inkişafında M.T.Sidqi, C.Məmmədquluzadə, C.P.Sultanov, M.Ə.Süleymanov, X.Hacılarov, Ə.Xəlilov, M.Kəngərli, M.C.Şürbi və başqalarının mühüm rolu olub.

1920-ci il iyul ayının 28-də Naxçıvanda sovet hakimiyyəti elan ediləndən az sonra bir sıra sahələrə, o cümlədən, təhsil, elm və mədəniyyət sahələrinə də diqqət artırıldı. Maarif sisteminin idarə olunması üçün Azərbaycanın Xalq Komissarları Şurasının göstərişi ilə 1920-ci ilin oktyabr ayının 10-da Naxçıvan İnqilab Komitəsinin qərarı ilə Xalq maarifi şöbəsi yaradılır və şöbə müdiri vəzifəsinə tanınmış ziyalı, əsl müəllim, maarif fədaisi olan Əbdüləzim Rüstəmov təyin edilir.

XX əsrin əvvəllərində Naxçıvanda məktəblər şəbəkəsinin genişləndirilməsi və şagirdlərin məktəbə cəlb edilməsi sürətlə davam edirdi. Naxçıvan Muxtariyyətinin yeni yarandığı 1924-1925-ci illərdə Naxçıvanda 75 məktəb var idi. Həmin məktəblərdəki siniflərin sayı 210, siniflərdə dərs aparan müəllimlərin sayı 154 olmaqla, bu məktəblərdə 6573 nəfər şagird təhsilə cəlb edilmişdi.

1922-ci ilin avqust ayının 28-də Naxçıvan şəhərində teatr binasında keçirilən Naxçıvan Müəllimlərinin 1-ci Qurultayında Naxçıvanda müəllim çatışmazlığı haqqında ciddi söhbət getdi və Naxçıvanda müəllimə olan tələbatı ödəmək məqsədilə 1 noyabr 1922-ci il tarixdən Naxçıvanda Müəllimlər Seminariyası açmaq haqqında qərar qəbul olundu.

Naxçıvanda gələcək müəllim kadrlarının hazırlanmasında Naxçıvan Müəllimlər Seminariyası böyük rol oynadı. Seminariyanın ilk direktoru Xəlilağa Hacılarov oldu. Əbdüləzim Rüstəmov onun köməkçisi və coğrafiya müəllimi, H.Səfərli riyaziyyat müəllimi, H.Qaziyev təbiət müəllimi, İ.Axundov bədən tərbiyəsi müəllimi təyin edildilər.

Naxçıvan Müəllimlər Seminariyası 1 il fəaliyyət göstərəndən sonra 1923/1924-cü tədris ilində öz fəaliyyətini dayandırdı və seminariyanın bazasında Naxçıvan Pedaqoji texnikumu yaradıldı. Texnikum 1923-cü ilin dekabrından Ordubad şəhərində fəaliyyət göstərməyə başladı. Naxçıvan Cümhuriyyəti yarandıqdan sonra Naxçıvan Müəllimlər Qurultayının qərarına uyğun olaraq 1924-cü ilin oktyabrında Naxçıvan Muxtar Respublikasında Qadın Seminariyası (Ünasiyyə məktəbi) fəaliyyətə başladı. Seminariyaya rəhbərlik N.Nəcəfovaya tapşırılmışdı. 1925-1926-cı tədris ilində seminariya Qadın Pedaqoji Texnikumuna çevrildi. Texnikumun ilk direktoru Fatma Əlizadə idi. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin qərarı ilə 1928-1929-cu tədris ilində kişi və qadın texnikumları birləşdirildi, bu isə öz növbəsində Naxçıvanda müəllim kadrlarının hazırlanmasının keyfiyyətcə yaxşılaşdırılmasına səbəb oldu. 1928-1929-cu tədris ilində Naxçıvan MSSR-də texnikumlarda 411 nəfər oxuyurdu ki, onların da 71 nəfəri qız idi. "Naxçıvan Zikur Texnikumu"nun ilk buraxılışı 1927-ci ildə oldu. Ardıcıl olaraq 3 buraxılış ili ərzində texnikumu 149 nəfər gənc bitirdi ki, bu da "ölkə məktəblərinin ehtiyacını ödəmək üçün" xeyli qüvvə idi. Sonrakı illərdə də Naxçıvan Pedaqoji texnikumunu xeyli gənc bitirdi ki, onlar sonralar Azərbaycanda ictimai fikrin və xalq maarifinin inkişafında mühüm rol oynadılar.

Arxiv sənədlərindən aydın olur ki, Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyev də 1938-1939-cu illərdə həmin texnikumu bitirmiş və 25 iyun 1939-cu il tarixdə ona 2027 nömrəli diplom verilmişdi.

1939-cu ildə və 40-cı illərin sonunda qarşıda duran ən mühüm vəzifələrdən biri də dövlət quruculuğu sahəsində çalışacaq kadrlar hazırlamaq və həmin kadrların elmi dünyagörüşünün yeni ideologiya əsasında formalaşdırmaqdan ibarət idi. Maarif işçilərinin müşavirələrinin keçirilməsi və bir sıra tədbirlərin təşkili dövlət quruculuğu işlərinə, ictimai fikrin inkişafı problemlərinə kömək məqsədilə həyata keçirilirdi. Bu tədbirlərin əsas iştirakçıları məktəblərdə çalışan müəllimlər idi.

XX əsrin 40-cı illərində Naxçıvanda məktəb və maarif sahəsində baş verən dəyişikliklər və yüksək ixtisaslı müəllim kadrlarına olan tələbat və ehtiyac üzündən Naxçıvanda daha yüksək kateqoriyalı və ixtisaslı pedaqoji kadrlar hazırlayan yeni təhsil müəssisəsi yaradılması zəruriyyətini qarşıya qoymuşdu.

Naxçıvan MSSR Xalq Komissarları Şurasının 14 avqust 1939-cu il tarixli qərarı ilə yaradılan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu 1939-cu ilin sentyabr ayının 15-də fəaliyyətə başlamışdı. İnstitut təşkil olunduğu vaxt orada cəmi iki fakültə (dil-ədəbiyyat, fizika-riyaziyyat) fəaliyyət göstərirdi.

İnstitut təşkil olunduğu vaxt Naxçıvan Müəllimlər İnstitutu üçün ayrıca bina ayrılmışdı. Əvvəllər heç bir tədris avadanlığı, kifayət qədər maddi-texniki bazası olmayan institutda institutun işgüzar və səriştəli, təşəbbüskar pedaqoji kollektivinin səyləri ilə qısa bir müddətdə xeyli əyani vəsait toplanmış, kabinələr və laboratoriyalar yaradılmışdı.

"Naxçıvanda müəllim kadrları hazırlamaqda çox böyük rolu olan", "Naxçıvan Muxtariyyətinda maarif, mədəniyyət və incəsənətin inkişafında xidmətləri qeyd olunan" Naxçıvan Müəllimlər İnstitutu 15 ilə yaxın davam edən fəaliyyət dövründə Muxtar Respublikada pedaqoji profilli ixtisaslar üzrə kadr potensialının yaranmasında və məktəblərin müəllim kadrları ilə təmin olunmasında müstəsna rol oynadı. Naxçıvan Müəllimlər İnstitutunun yüzlərlə məzunu sonrakı illlərdə nəinki Naxçıvanda, həm də Azərbaycanda elmi-pedaqoji fikrin, ictimai-siyasi fikrin, elmin, mədəniyyətin və xalq maarifinin aparıcı simaları olmuş, Azərbaycan elminə öz töhfələrini vermişlər. 1939-1940-cı tədris ilində iki fakültədə 129 tələbə ilə fəaliyyətə başlayan institutun 64 nəfər tələbəsi II Dünya müharibəsində səfərbərliyə alınmış, ilk buraxılışda institutu cəmi 65 nəfər (52 nəfər ədəbiyyat, 13 nəfər fizika-riyaziyyat üzrə) bitirmişdi və onlardan 31 nəfəri qızlar idi.

Fəaliyyətinin bir hissəsi II Dünya müharibəsi dövrünə təsadüf edən Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunu müharibə illərində, əyani şöbənin 4 fakültəsi olmaqla, institutu 166 nəfər bitirmişdi.

1939-1954-cü illərdə dörd fakültədə əyani və qiyabi şöbələrdə müəllim kadrlar hazırlanmasında böyük uğurlar qazanıldı. Fəaliyyət göstərdiyi illərdə institutda 6 kafedra (dil-ədəbiyyat, pedaqogika, təbiət-coğrafiya, fizika-riyaziyyat, marksizm-leninizm əsasları, hərbi) fəaliyyət göstərmiş, 5 fənn kabineti mövcud olmuş və zəngin kitabxana yaradılmış, 5 dərnək təşkil olunmuş və institut tələbələrinin ixtiyarına verilmişdi.

Məktəblərin müəllim kadrları ilə təmin edilməsini işini sürətləndirmək və tələbatı tam ödəmək məqsədi ilə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyəti dövründə qiyabi şöbə yaradıldı. Qiyabi təhsilə xüsusi önəm verilir, pedaqoji kadrların seçilib təhsilə cəlb olunmasında milli kadr məsələsinə xüsusi diqqət yetirilirdi.

Qiyabi şöbəni 1943/1944-cü tədris ilində 42 nəfər, 1944/1945-ci tədris ilində 96 nəfər, 1945-1946-cı tədris ilində 147 nəfər bitirdi, sonrakı illərdə yüzlərlə şəxs qiyabi təhsilə cəlb olundu.

1949-cu ildən 1954-cü ilə qədər Naxçıvan Müəllimlər İnstitutunun rus bölməsini 300 nəfərə yaxın məzun bitirdi. Naxçıvan Müəllimlər İnstitutunun əyani və qiyabi şöbəsini müxtəlif illərdə 1189 nəfər bitirərək Naxçıvanda və Azərbaycanın digər rayonlarında pedaqoji fəaliyyətlə məşğul olub. Azərbaycanda məktəb və təhsil müəssisələrinin yaradılmasında və inkişafında, məktəblərin müəllim kadrlarına olan tələbatın ödənilməsində Naxçıvan Müəllimlər İnstitutunun məzunlarının böyük xidmətləri vardır.

1956-1971-ci illərdə Naxçıvan MSSR məktəblərinin alitəhsilli ixtisaslı müəllimlərlə təmin edilməsi Azərbaycanın ali məktəblərinin əyani və qiyabi şöbələrini bitirmiş məzunlar hesabına təmin olunurdu.

Muxtar Respublikanın özündə müəllim kadrlarının hazırlanması üçün Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Naxçıvan şəhərində 1954-1955-ci tədris illindən Pedaqoji məktəb yenidən fəaliyyətə başladı. 1965-1972-ci illərdə buranı 570 nəfər ibtidai təhsil müəllimi, 60 nəfər bədən tərbiyəsi müəllimi, 90 nəfər məktəbəqədər tərbiyəçi bitirdi.

Bəhs olunan dövrdə müəllim kadrlarının peşə hazırlığının artırılmasına da diqqət yetirildi. Azərbaycan SSR Nazirlər Sovetinin 339 saylı 21 may 1963-cü il tarixli qərarına əsasən 1 iyun 1963-cü il tarixdən Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan şəhərində Naxçıvan MSSR Maarif Nazirliyinin metodkabineti bazası nəzdində filialı açıldı. Bu qərar əsasında Naxçıvan MSSR Nazirlər Sovetinin 28 iyun 1963-cü il tarixli müvafiq qərarı qəbul edildi. Lakin filial mövcud ehtiyacı tam ödəmirdi. Buna görə də filial əsasında müstəqil institut yaradılması məsələsi ortaya çıxmışdı.

**(Ardı var)**